# “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə

## AZƏRBAYCAN RESPUBLIKASI PREZIDENTININ SƏRƏNCAMI

“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti bir ay müddətində:

qüvvədə olan müvafiq qanunvericilik aktlarının “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun 8-ci maddəsinin 5-ci bəndində nəzərdə tutulmuş Əsərin qeydiyyatı haqqında şəhadətnamənin nümunəsini təsdiq etsin;

“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun 40-cı maddəsinin altıncı abzasında nəzərdə tutulmuş müəllif qonorarının minimum məbləğini müəyyən etsin;

öz səlahiyyətləri daxilində “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun müddəalarından irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikasının Qanununun 8-ci maddəsinin 4-cü bəndində, 17-ci maddəsinin 4-cü bəndində, 27-ci maddəsinin 2-ci bəndində, 29-cu maddəsinin 2-ci bəndində, 37-ci maddəsinin 3-cü bəndində, 40-cı maddəsinin yeddinci və on beşinci abzaslarında, 43-cu maddəsinin 1-ci bəndinin 4-cü yarımbəndində və 3-cü bəndində, habelə 46-cı maddəsinin 1-ci bəndində nəzərdə tutulmuş “Azərbaycan Respublikasının müəlliflik hüquqları sahəsində fəaliyyət göstərən müvafiq icra hakimiyyəti orqanının” səlahiyyətlərini Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi həyata keçirir.

“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikasının Qanununun 27-ci maddəsinin 2-ci bəndində və 40-cı maddəsinin altıncı abzasında nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanının” səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir.

Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun 40-cı maddəsinin üçüncü hissəsinin yeddinci abzasında nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi öz səlahiyyətləri daxilində həyata keçirirlər.[1]

**Azərbaycan Respublikasının Prezidenti**
**Heydər ƏLİYEV**

Bakı şəhəri, 8 oktyabr 1996-cı il.
№ 438.

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc olunmuşdur (30 sentyabr 1997-ci il, № 3, maddə 168)***

## SƏRƏNCAMA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

**1.** 31 avqust 2009-cu il tarixli 154 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti 03 sentyabr 2009-cu il, № 195, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 08, maddə 630)**

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

---

[1] 31 avqust 2009-cu il tarixli 154 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (“Azərbaycan” qəzeti 03 sentyabr 2009-cu il, № 195, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, № 08, maddə 630) ilə 2-ci bəndinə dördüncü abzas əlavə edilmişdir.